Gürcüstan müstəqillik qazandıqdan sonra ölkədə 6-cı dəfə prezident seçkiləri keçirilir. Bu ölkənin vətəndaşları Zviad Qamsaxurdia(1 dəfə), Eduard Şevardnadze (2 dəfə), Mixeil Saakaşvilidən (2 dəfə) sonra 4-cü prezidenti seçirlər.
Cari seçkilərdə 23 nəfər prezidentliyə namizəd və 3.537.719 nəfər seçici qeydə alınmışdır. Onlar 84 seçki dairəsinin 3.689 seçki məntəqəsində səs verəcəklər.
Gürcüstan Mərkəzi Seçki Komissiyasından (MSK) verilən məlumata görə, seçkiləri 60 yerli və 65 beynəlxalq təşkilatdan 20.987 nümayəndə müşahidə edir. Seçkilərin gedişini 152 (onlardan 84-ü xarici ölkələrdəndir) kütləvi informasiya vasitələrinin 1.381 nəfər əməkdaşı işıqlandırır.